**Rövşən Dadaş oğlu Bayramov**

**UOT:338.242:338.246.025.2:338.33; JEL:D04;O14;F5.**

# Kimya müəssisələrininnin iqtisadi təhlükəsizlik sisteminin təşkilinə nəzəri-metodiki yanaşmalar

***Xülasə***

*Tədqiqatın məqsədi – kimya müəssisələrininnin iqtisadi təhlükəsizlik sisteminə və təşkilinə nəzəri-metodiki yanaşmaların tədqiqidir. Bu məqsədlə kimya müəssələrinin iqtisadı təhlükəsizlik problemlərinin mahiyyəti araşdırılmış və açıqlanmışdır. İqtisadi təhlükəsizlik sisteminin təşkili ilə bağlı vacib məsələlər və amilllər təhlil olunmuşdur. İqtisadi təhlükəsizlik sisteminin gücləndirilməsi ilə əlaqədar dünya təcrübəsinə toxunulmuşdur və vacib məqamlar verilmişdir. İqtisadi təhlükəsizliyin nəzəri aspektlərinin sistemli şəkildə baxilması əsasında ümumiləşdirilmə aparılmışdır. Müəssisələrdə iqtisadi təhlükəsizliyin təşkilinin vacibliyi əsaslandırılmışdır. Kimya müəssisələrində iqtisadi təhlükəslik sisteminin təşkilinin əhəmiyyəti verilmiş və bu proseslərin daha səmərəli həyata kecirilməsinin vacibliyi bildirilmişdir. Kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin təşkilinə metodoki yanaşmalar müəyyənlişdirilmişdir. Tədqiqatın metodologiyası – tədqiq olunan problemlər üzrə müasir dövrdə yaranmış real vəziyyətdən çıxış etməklə təhlil və sintez, ümumiləşdirmə vasitəsilə postpandemiya və postmüharibə dövründə kimya müəssisələrininnin iqtisadi təhlükəsizlik sisteminin təşkilinə nəzəri-metodiki yanaşmaların formalaşdırılması ilə əlaqəli üslublardan, metodlardan, eyni zamanda bu problemlərə bağlı bir sıra alim və tədqiqatçıların yanaşmalarından ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti əldə olunmuş nəticələrdən və elmi-iqtisadi müddəalardan, verilmiş təkliflərdən ölkəmizin kimya sənayesində və onun müəssisələrində iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün fəaliyyət strategiyalarının və kompleks tədbirlərin hazırlanmasında istifadə edilə bilər. Tədqiqatın nəticələri – qlobal təhdidlərin artdığı bir dövrdə Azərbaycanın kimya müəssisələrində iqtisadi təhlükəsizliyinin gücləndirilməsi üçün daha optimal və səmərəli mexanizmlərin işlənib hazırlanmasından ibarətdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda baxılan problemlərin əhəmiyyətli hissəsi yeni elmi-tədqiqat istiqamətləridir. Belə ki, postpandemiya və postmüharibə dövründə kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin yeni mexanizmlərinin işlənməsi və tətbiq üçün əsaslandırılması vacibdir. Mövcud iqtisadi təhlükəsizlik mexanizmlərinin əhəmiyyətli səviyyədə təkmilləşdirilməsinə zərurətin olması elmi-iqtisadi dəlillərlə verilmişdir. Kimya müəssisələrinin xammal təminatının gücləndirilməsinin vacibliyi, əsas fondların yenilənməsi, yüksək texnologiyaların transferinin intensivləşdirilməsi məsələləri əsaslandırılmışdır. Postpandemiya dövründə kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi və daha səmərəli təşkili üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözləri:*** *kimya müəssisələri, iqtisadi təhlükəsizlik, iqtisadi təhlükəsizliyinin nəzəri əsasları, iqtisadi təhlükəsizliyin medodiki yanaşmaları, kimya müssisələrinin iqtisadi təhlükəsizlik problemləri, kimya müəssisələrində təhlükəsizlik məsələləri, kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin nəzəri- metodoloji aspektləri.*

## Giriş

Müasir şəraitdə kimya müəssisələrinin iqtisadi təhlükəsizlik problemlərinin sistemli şəkildə həll olunması və optimal nəzəri-metodiki yanaşmaların müəyyənləşdirilməsi vacib şərtlərdəndir. Kimya və neftkimya kompleksi yüksək məhsuldarlığa malik əlavə dəyər yaradan iqtisadiyyat sahəsidir və dünya bazarında bu qəbildən olan müəssisələrin

*©Rövşən Dadaş oğlu Bayramov Sumqayıt Dövlət Universiteti doktorant E-mail: mr.bayramov1972@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

məhsullarına daim ehtiyac vardır. Ümumiyyətlə, neft və qaz xammallarının daha dərin emal olunmasında və gəlir gətirməsində kimya müəssisələrinin güclü rolu məlumdur, bu amillər baxımından həmin müəssisələrin iqtisadi təhülkəsizliyinin təmin edilməsi prioritet vəzifələrdən hesab olunur. Bu qeyd olunan amillər baxımından, müəssisənin iqtisadi təhlükəsizlik sisteminin təmin edilməsi və bununla əlaqədər olaraq mühüm tədbirlərin görülməsi vacib şərtləlrdəndir. Qlobal iqtisadi təhdidlərin gücləndiyi bir dövrdə kimya müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması, antiböhran şəraitində onların dayanıqlılıq immunitetlərinin gücləndirilməsi, bununla bağlı zəruri tədbirlərin görülməsi, əlavə xərclərin çəkilməsi bir zərurət kimi diqqət çəkir [1]. Dünyada baş verən qlobal böhranlar, o cümlədən maliyyə və iqtisadi böhranların mənfi fəsadlarının təhlilindən baxsaq görmək mümkündür ki, müasir dövrdə istənilən fəaliyyət subyektinin iqtisadi təhlükəsizlik strategiyası və dayanıqlı mexanizmlərinin olması problemi vardır və bunlar sistemli yanaşmanı şərtləndirir. Daxili və xarici təhlükələrin artdığı bir dövrdə müəssisənin iqtisadi təhlükəsizlik strategiyasının işlənməsi və həyata keçirilməsi tələb olunur [2]. Hər bir müəssisə özünün fəaliyyətində müəyyən strateji hədəfləri qarşıya qoyur və bu məqsədlə geniş həcmli fəaliyyət istiqamətlərini müəyyənləşdirir, investisiyalar yatırır, iri məbləğə malik yüksək texnologiyalar əsaslı avadanlıqlar alır, istehsal və kommersiya sahələrini genişləndirir, daha çox gəlir götürmək üçün risklərə gedir və s. Bu kontekstdə müəssisənin iqtisadi təhlükəsizlik sisteminin yüksək səviyyədə təmin edilməsi mürəkkəb bir prosesdir və bununla bağlı olaraq müəssisənin strateji fəaliyyət istiqamətlərinə uyğun olaraq iqtisadi təhlükəsizlik mexanizmləri hazırlanmalıdır. Digər tərəfdən, müəssisənin iqtisadi təhlükəsizlik sistemini formalaşdırarkən bir çox funksional fəaliyyət sahələrinin xüsusiyyətləri nəzərə alınmalı, bunun üçün lazım olan mexanizmlər hazırlanmalı, fəaliyyət alətləri tətbiq edilməli və idarəetmə həlqələri yaradılmalıdır. Eyni zaman da, maliyyə və texniki-texnoloji məsələlər, kadr və insan potensialı, hüquqi və digər iqtisadi fəaliyyət sahələri, həmçinin sosial-iqtisadi problemlərə yanaşmalara daha çox ciddi önəm verilməlidir. Əvvəldə qeyd etdiyimiz kimi müəssisənin iqtisadi təhlükəsizlik sisteminin formalaşdırılması proseslərində onun iqtisadi gücünə və rəqabətqabiliyyətliliyinə ciddi təsir göstərən, o cümlədən, daxili və xarici amillər mütləq şəkildə diqqət mərkəzində saxlanılmalıdır [3]. Bunlarla yanaşı, öz iqtisadi təhlükəsizlik sistemini möhkəmləndiməkdə daha çox maraqlı olan müəssisələr praktikada bununla bağlı problemlərə mövcud vəziyyətdən və perspektiv tendensiyalardan çıxış etməklə kompleks şəkildə yanaşırlar və bununla əlaqədar olaraq müəssisənin iqtisadi təhlükəsizlik modelini işləyib hazırlamağa üstünlük verirlər. Müəssisənin iqtisadi təhlükəsizlik modelinin hazırlanmasına bir çox amillərin nəzərə alınması vacib şərtlərdəndir.

Dünyada baş verən dəyişkiliklər, eyni zamanda, COVİD – 19 pandemiyasından yaranan yeni şəraitdə hər bir müəssisənin iqtisadi təhlükəsizlik strategiyasının təkmilləşdirilməsi problemi yaranmışdır. Bu sırada təhlükəsizlik strategiyasının təşkilati-iqtisadi amillərinə daha çox diqqət yetirilməlidir [4]. İqtisadi təhlükəsizlik tədbirləri və tətbiq olunan mexanizmlər hazırkı şəraitdə təhdidi xarakterli məsələlərə immunitetlik səviyyəsində olmalı və onların işləkliyi təmin edilməlidir. Başqa sözlə, müəssisənin iqtisadi təhlükəsizlik prinsipləri və meyraları onun fəaliyyəti ilə bağlı strateji məqamları özündə əks etdirməli, dövrün tələblərinə cavab verməli və əvvəldə bildirdiyimiz kimi, uzunmüddətli dövrü özündə əks etdirməlidir. Bazar iqtisadiyyatı şəraitində istehsal infrastrukturunun daimi yenilənməsi və inkişaf etdirilməsi, o cümlədən logistika infrastrukturunun inkişafının ciddi diqqətdə saxlanılması təmin olunmadan istehsalın səmərəliliyininə nail olunması qeyri-mümkündür [5]. Rəqabət mühiti dərinləşdikcə və yeni texnologiyalar, yeni idarəetmə metodları formalaşdıqca və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

inkişaf etdikcə kimya müəssisələrində iqtisadi təhlükəsizlik problemlərinə nəzəri-metodiki yanaşmaların maksimum yenilənməsi vacibdir.

**Müəssisələrin iqtisadi təhlükəsizlik problemlərinə nəzəri-metodoloji yanaşmaların təhlili**

Müəssisələrin iqtisadi təhlükəsizlik problemlərinə nəzəri-metdoolji yanaşmaların optimallığı və dövrün tələblərinə uyğunluğu ciddi amil kimi dəyərləndirilməlidir. İqtisadiyyatın mühüm sahələrinin təhlükəsizlik problemləri xeyli aktuallaşmışdır. Xüsusilə, neftqaz kimya sənayesində bu məsələlər strateji xarakter almışdır və ölkəmizdə də bu sahələr inkişaf etdiyindən kifayət qədər aktualdır. Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədilə tələb olunan mexanizmlərinin hazırlanması və tətbiqi problemlərinə konspetual yanaşma olmalıdır [6]. Həmçinin, müəssisələrin fəaliyyət istiqamətlərindən və təyinattlarından asılı olaraq iqtisadi təhlükəsizlik məsələləri avtomatik olaraq ön plana çıxır. Xüsusilə, güclü ixrac potensialına malik müəssisələrin sabitliyinin və iqtisadi təhlükəsizliyinin təmine dilməsi vacib hesab olunur [7]. Bu halda çoxlu sayda amillər, o cümlədən müəssisənin iqtisadi təhlükəsizliyinə təsir edən daxili və xarici amillər mütləq şəkildə nəzərə alınmalıdır: daxili amillər: 1) idarəetmə sisteminin qeyri-səmərəliliyi, idarəetmə və istehsalın idarə edilməsi mexanizmlərinin müasir dövrün tələblərinə cavab verməməsi; 2) istehsalın strukturunun məhdudluğu, yeni innovatik məhsulların istehsalının olmaması, innovasiyaların tətbiqinin gecikməsi; 3) müasir texnologiyaların tətbiqi strategiyasının reallaşdırılmaması, idarəetmə və məhsulun maya dəyəri xərclərinin artması; 4) maliyyə və mühasibatlıq strukturlarının qeyri-şəffaflığı, hesabatların qeyri-dürüstlüyü, daxili audit və nəzarət sisteminin zəifliyi və s. xarici amillər: 1) siyasi proseslərdə və siyasi sistemdə baş verən qeyri-sabitlik halları, dövlət dəstəyi mexanizmlərinin qeyri-adekvatlığı; 2) iqtisadi proseslərin qeyri-sabitliyi və səmərəlilik problemləri, maliyyə bazarlarındakı problemlər, bank sektorununn çətinlikləri; 3) mal və xidmətlər bazarında struktur dəyişiklikləri,istehlak səviyyəsinin aşağı düşməsi və istehlak bazarlarında durğunluq; 4) xammal resursları ilə bağlı problemlər, qlobal təsirlər və müasir iqtisadi çağırşlardan ortaya çıxan tələblər və s. Əgər müəssisənin iqtisadi təhlükəsizliyinə təsir edən xarici və daxili amillərə diqqət yetirsək, görmək mümkündür ki, xarici amillər sırasında əsas məqamlar siyasi və iqtisadi proseslərlə, dövlət tərəfindən yürüdülən iqtisadi siyasət mexanizmləri ilə, istehlak bazarları və digər analoji bazarlarla daha çox bağlıdır. Daxili amillər sırasında isə, əsas etibarı ilə müəssisənin idarəetmə sisteminin təkmilləşdirilməsi və onun səmərəliliyinin təmin edilməsi, istehsalın strukturu və əsas fondların yenilənməsi ilə bağlı problemlərin diqqət mərkəzində saxlanılması, müəssisənin maliyyə sabitliyi, güclü daxili nəzarət sisteminin formalaşdırılması, daxili auditin dürüstlüyü və ümumilikdə müəssisənin balanslaşdırılmış fəaliyyət və inkişaf strategiyasının olması daha çox diqqət çəkir. Şəkil 1-də müəssisənin iqtisadi təhlükəsizlik sisteminin təşkilinə nəzəri-metodiki yanaşmaların blok-sxemi formasında ümumiləşdirmişik.

Müəssisənin iqtisadi təhlükəsizlik sisteminin optimal təşkilində vacib məsələlər kimi konseptual yanaşmanın olması, hazırlanan mexanizmlərin dövrün çağırışlarına cavab verməsi, iqtisadi təhlükəsizlik alətlərinin güclü olması, müəssisənin fəaliyyətində kompleks və sistemli yanaşmanın mövcudluğu, şəffaflıq, dürüstlük və s. amillər daha çox fərqləndirilir. Qeyd edək ki, müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində əsas məsələlərdən biri də onun resurs potensialından səmərəli istifadənin təmin olunması və müəssisənin dinamik inkişfı ilə bağlı tədbirlərin ardıcıl şəkildə reallaşdırılmasıdır [8]. Digər tərəfdən, müəssisənin iqtisadi təhlükəsizlik baxımından bir çox sahələr üzrə sistemli təhlillərin aparılması və müvafiq nəticələrin çıxarılması lazım gəlir. Məsələn, əgər söhbət müəssisənin xammal sabitliyinin təminatından gedirsə, deməli ilk növbədə, etibarlı xammal mənbələri təhlil olunmalı, malgöndərənlərlə əlaqələr araşdırılmalı və uzunmüddətli dövr üçün müəssisənin xammal



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

resursları ilə sabit təmintı məsələləri proqnozlaşdırılmalıdır. Yaxud, müəssisədə istehsal olunan məhsullar üzrə analoji bazarların təhlili aparılmalı və əsas məhsulların həyat tsikli üzrə proqnozlar tərtib edilməlidir [9].

**Şəkil 1.**

**Müəssisənin iqtisadi təhlükəsizlik sisteminin təşkilinə nəzəri-metodiki yanaşmaların blok-sxemi**




Müəssisənin istehsal proseslərinin intensivliyi, istehsalın strukturunun təkmilləşdirilməsi tədbirləri ilə yanaşı, istehsal olunan məhsulların rəqabətqabiliyyətililiyinin yüksək olması və onların əmtəə bazarlarında möhkəmləsinin təmin edilməsi müəssisənin iqtisadi təhlükəsizliyi baxımından mühüm şərtlərdəndir. Müəssisənin iqtisadi təhlükəsizliyinin əsas prinsipləri kimi sistemlilik və komplekslilik, fasiləsizlik və iqtisadi səmərəlilik, qarşılıqlı fəaliyyət və koordinasiya tədbirləri mühümlüyü ilə fərqlənirlər. Bundan əlavə, müəssisənin investisiya layihələrinin səmərəlilik səviyyəsinin yüksək olması təmin edilməlidir. Müəssisənin texniki-texnoloji problemlərinin həll edilməsi və onun rəqabətqabiliyyətinin yüksəldilməsi, innovasiyaların tətbiqi ilə bağlı yanaşmalar onun iqtisadi təhlükəsizliyinin gücləndirilməsində vacib yerləri tuturlar [10].

**Azərbaycanda postpandemiya dövründə kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi məsələləri və istiqamətləri**

Postpandemiya dövründə kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi prioritetliyi ilə daha qabarıq şəkildə ortya çıxacaqdır. Belə ki, COVİD – 19 pandemiyası ilə bağlı yaranan yeni şəraitdə iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən kimya sənayesinin müəssisələrinin infrastruktur potensialının inkişaf etdirilməsi aktuallığı ilə diqqət çəkir. Dövrün tələblərinə uyğun məhsulların istehsal olunaması üçün daha məhsuldar və rəqabət qabiliyyətli, daxili tələbatla yanaşı, məqsədli və ünvanlı şəkildə dünya bazarlarına yönəlikli olan ixracyönlü məhsulların istehsalına imkan verən qurğuların istismara verilməsi, yüksək texnologiyaların transfer edilməsi problemləri diqqət çəkirlər. Bu problemlərin həlli üçün artıq ölkəmizdə konseptual yanaşmalar formalaşdırılmış və strateji hədəflər



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

müəyyənləşdirilmişdir. Bunlarla bağlı yaxın və uzaq dövrlərə hesablanmış, əsaslandırılmış vəzifələr və hədəflər ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş, "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi"ndə verilmişdir [11]. Bu strateji sənədə qədər kimya sənayesinin prioritet fəaliyyət istiqamətləri, inkişaf parametrləri və meyarları, xüsusilə kimya sənayesi müəssiələrinin əsas fondlarını tamamilə yenilənməsi, müasir texnologiyalar əsaslı kimya zavodlarının yaradılması, istehsal və emal zənciri üzrə rəqabət qabiliyyətli kimiya müəssisələrinin təşkil edilməsi vəzifələri öz əksini ölkə Prezidentinin 26 dekabr 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda tapmışdır [12]. Həmin proqramda qeyri-neft sektorunun inkişaf etdirilməsi çərçivəsində kimya sənayesinin inkişafına və onun rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılmasına xüsusi önəm verilmişdir və bunun üçün texnoparkların, kimya sənaye parklarının, digər müasir iqtisadi vasitələrin təşkili nəzərdə tutulmuşdur. Artıq ölkədə ilk kimya sənaye parkı yaradılmış və bu park Sumqayıtda səmərəli şəkildə fəaliyyət göstərməkdədir. Bunun üçün dövlət tərəfindən dəstəkləyici və stimullaşdırıcı mexanizmlər nəzərədə tutulmuşdur. Belə ki, ölkə Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" müasir yüksək texnologiyalar əsaslı müəssisələr şəbəkəsinin yaradılması ilə kimya müəssisələrinin iqtisadi təhlükəsizlik problemlərinin həllində yeni infrastruktur və istehsal imkanları yaradılmışdır, həmin parklarda qeydiyyata düşən rezidentlər üçün vergi və gömrük güzəştləri nəzərdə tutulmuşdur [13]. 2020-ci il yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişikiliklərə əsasən kimya sənaye parkında qeydiyyata düşən rezidentlər 10 illik müddətinə vergilərdən azad olunmuşlar. Həmin müddət kimya sənayesi müəssisələrinin güclü infrastruktur formalaşdırılmasına, yüksək texnologiyalar əldə etməsinə, maliyyə sabitliyinin və təminatının gücləndirilməsinə bəs edə biləcək bir müddət kimi qiymətləndirilə bilər.



Ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırlması məqsədi ilə Azərbaycan Respublikası Prezdentinin 2011-ci il 21 dekabr tarixli Fərmanına əsasən Sumqayıt şəhərində Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır [14]. Bu parkın yaradılması müasir infrastrukturun formalaşdırılmasına imkan vermişdir, park daxili və xarici investisiyalar üçün kifayət qədər cəlbedici səviyyədə qiymətləndirilir. Buna görə də, kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və bununla bağlı proseslərin strateji idarə edilməsinin əsas problemlərindən biri kimi, bu müəssisələrin fəaliyyətindən ortaya çıxan risklərin dərindən öyrənilməsi, onları yaradan səbəblərin müəyyənləşdirilməsi və həmin risklərin kifayət qədər təhlükəsizləşdirmək tədbilərinin görülməsi üçün, bu risklərin strateji idarə olunması mexanizmləri hazırlanmalıdır. Başqa sözlə, hər bir kimya müəssisəsinin iqtisadi təhlükəsizlik strategiyası olmalı və bununla bərabər regional və makro səviyyədə kimya müəssisələrinin fəaliyyətinə mənfi təsir edə biləcək iqtisadi və digər amillərin real olaraq qiymətləndirilməsi və nəzərə alınması təmin edilməlidir. Eyni zamanda, Sumqayıtda nəhəng SOCAR Karbamid və SOCAR Polimer zavodlarının istifadəyə verilməsi ilə ölkəmizdə kimya sənayesinin innovatik inkişafı sahəsində önəmli addımlar atılmışdır. Bu nəhəng müəssisələrin tikintisinə və istismara verilməsinə 100 milyonlarla dollar vəsait xərclənmişdir və ümumilikdə son 5 il ərzində yeni kimya sənayesi güclərinin və müəssisələrinin yaradılmasına 2,2 milyard ABŞ dollarından çox vəsait xərclənmişdir. Bu baxımdan, kimya müəssisələrinin təhlükəsizlik problemləri iqtisadi amillər nəzərə alınmaqla strateji əhəmiyyət kəsb edir. Məlumdur ki, ölkəmizin əsas kimya müəssisələri SOCAR-ın tabelliyindədir, bu isə mühüm qeyri-neft sektoru sahəsi olan kimya sənayesinin istehsal potensialının diversifikasiyalaşdırılması

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

baxımından yeni tədbirlərin hazırlanmasını və həyata keçirilməsini tələb edir. Yəni, SOCAR-ın müxtəlif neft və qaz emalı müəssisələrində istehsal olunan xammallardan istifadə etməklə, sahibkarlığın və özəl biznesin inkişafına üstünlük verilməli, özəl emal kimya müəssisələrinin yaradılmasına əlverişli şərait təmin edilməli və dövlət dəstəyi gücləndirilməlidir. Başqa sözlə, kimya sektorunun inkişafında özəl müəssisələrin rolu əhəmiyyətli səviyyədə yüksəldilməli, bu sahəyə yerli və xarici investorların marağı artırılmalı, xammal təminatı ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması istiqamətində məqsədli tədbirlər görülməlidir. İqtisadi təhlükəsizlik baxımından Sumqayıtda - "Etilen-Polietilen" zavodunda istismarda olan bir sıra iri gücə malik texnoloji qurğuların - "EP-300", "Polimer-120" və "Buxar Generator" qurğularının təhlükəsizliyinin təmin edilməsi məsələlərinə də xüsusi önəm verilməlidir. Belə ki, bu qurğular vasitəsilə "Etilen-Polietilen" zavodunda istehsal olunan məhsulların əksər hissəsi xaricə satılır və ölkəyə valyuta resursları gətirir, elə bu amilin özü kimya müəssisəsinin iqtisadi təhlükəsizilyinin vacibliyinin və onun gücləndirilməsinin mühüm göstəricilərindən biri kimi qiymətləndirilməlidir. Bazar iqtisadiyyatı prinsiplərinin inkişaf etdirilməsi və milli iqtisadi təhlükəsizliyin təmin edilməsi kontekstində kimya müəssisələrinin idarəetmə mexanizmlərinin gücləndirilməsi üçün daha səmərəli tədbirlər son onilliklərdə əsasən intensivləşmişdir. Belə ki, ölkə Prezdentinin 22 mart 2001-ci il tarixli Sərəncamı ilə kimya sənaye müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi prosesləri həyata keçirilmişdir. Bu tədbirlər nəticəsində ölkəmizin milli və iqtisadi təhlükəsizlik meyarlarına cavab verməyən çoxlu sayda əsas fondları köhnəlmiş kimya qurğuları istismardan çıxarılmış, bir sıra zavodlar isə fəaliyyətlərini dayandırmışlar, ya da ləğv olunmuşlar. Əvəzində isə əvvəldə qeyd etdiyimiz kimi, müasir texnologiylar əsaslı kimya müəssisələrinin yaradılması ön plana çəkilmişdir. Bunlarla bərabər, kimya müəssisələrində məhsulun maya dəyərinə çəkilən xərclərin optimallaşdırılması, maliyyə resurslarından təyinatı üzrə istifadə edilməsi iqtisadi təhlükəsizliyin gücləndirilməsi baxımından xeyli vacib məsələlər hesab olunur [15]. Buna görə də, kimya müəssisələrinin iqtisadi təhlükəsizliyinin gücləndirilməsi problemlərinə ciddi önəm verilməli və bu istiqamətdə iqtisadi təhlükəsizliyin gücləndirilməsi tədbirləri həyata keçirilməlidir. Qlobal təhlükələrin ildən-ilə artması kimya müəssisələrində iqtisadi təhlükəsizliyin yeni mexanizmlərinin və elementlərinin işlənib hazırlanmasını şərtləndirir və tələb edir. Bunlarla əlaqədar olaraq, bir qrup problemlər və strateji aspektlər daha çox diqqət çəkirlər. Bunlar öz əksini şəkil 2-də verilmiş Azərbaycanda kimya müəssisələrinin iqtisadi təhlükəsizlik sisteminin təşkili prinsipləri və meyarlarında tapmışdır.



Ölkənin kimya müəssisələrinin iqtisadi təhlükəsizlik sisteminin təşkili baxımından, müasir dövrün tələblərinə cavab verən mexanizmlərinin işlənib hazırlanması, yüksək texnologiyaların transferi üçün maliyyə təminatının həll olunması, xamaml bazasının diversifikasiyalaşdırılması, bu sahədə fəaliyyətin dünya bazarlarının inkişaf səmtləri ilə uzlaşması tələb olunur. Digər tərəfdən, neftkimya kompleksinin inkişafının müasir aspektləri və fəaliyyət istiqamətləri bu sahəyə birbaşa investisiyaların yönəldilməsini şərtləndirir. Xüsusilə, xarici investisiyaların daha intensiv cəlbi istiqamətlərində əlavə tədbirlərin görülməsi vacibdir. Qeyd edək ki, son illərdə Sumqayıt Kimya Sənaye Parkına yönəldilən investisiyaların həcmi 3 mlrd. dollardan çox olmuşdur və bu investisiyaların həcmi ilbəil artmaqdadır [16]. Bu müasir infrastruktura malik sənaye parkında istehsal olunan məhsulların əhəmiyyətli hissəsi ixracyönlüdür və ümumilkdə ixrac potensialı 600-800 mln. ABŞ dolları həcmində gözlənilir. Artıq iri polipropilen istehsalatının istismara verilməsi sayəsində qeyri-neft ixracının həcmi artmağa başlamışdır [17]. Kimya sənaye parkında qeydiyyata düşən rezidentlərin sayı artıq 23-dür və yaxın illərdə rezidentlərin sayının artması gözlənir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Pandemiya şəraitində kimya müəssisələrinin fəaliyyəti xüsusi diqqət mərkəzində olmuşdur. Belə ki, əksər iqtisadiyyat sahələrinin fəaliyyətində müəyyən problemlər və məhdudiyyətlər yaransa da, kimya sənayesinin müəssisələrində əksinə sənaye məhsulunun istehsal həcmi və ixrac potensialı artmış, yeni istehsal gücləri istismara verilmişdir.

**Şəkil 2.**

**Azərbaycanda kimya müəssisələrinin iqtisadi təhlükəsizlik sisteminin təşkili prinsipləri və meyarlarının təxmini sxemi**






**Nəticə**

Kimya müəssisələrinin iqtisadi təhlükəsizlik sisteminin gücləndirilməsi və bu məsələlərin təşkili ilə bağlı nəzəri-metodiki yanaşmaların ümumiləşdirilməsi baxımından, diqqət yönəldilməsi vacib olan məsələləri qruplaşdırmaq olar:

- neftin qiymətinin qeyri-sabit olduğu bir dövrdə kimya sənayesi müəssisələrinin infrastrukturunun daha da inkişaf etdirilməsi və istehsalının artırılması, yeni valyuta daxilolma mənbələrinin yaradılması prioritetlik təşkil etməlidir;
- kimya müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması və daha maliyyə tutumlu dünya bazarlarına çıxışının təmin edilməsi vacibdir;
- kimya və neftkimya müəssisələrində əlavə dəyər zənciri üzrə yeni istehsal sahələrinin yaradılması və ixracyönlü məhsullarının istehsalının artırılması tədbirləri görülməlidir;
- ölkəmizdə kimya və neftkimya kompleksinin bütün növ xammal resurslarından maksimum səmərəli istifadə olunması istiqamətində kompleks tədbirlər planı hazırlanmalı və həyata keçirilməlidir;
- yüksək texnologiyalar əsaslı və məhsuldar kimya və neftkimya komplekslərinin yaradılmasına ciddi önəm verilməlidir.

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

## Ədəbiyyat


1. Гуреева М.А. Система экономической безопасности предприятия в условиях глобализации экономики // Символ науки. 2015. №10-1. – с. 30-38.
2. Рыбкина О.В., Болознев В.В. Разработка стратегии экономической безопасности предприятия // Экономинфо. 2017. №4. – с. 28-32.
3. Касперович С.А., Дербинская Е.А. Экономическая безопасность предприятия: сущность, цели и направления обеспечения // Труды БГТУ, 2016, № 7, – с. 278–282
4. Михайлов Я.Р. Формирование стратегии обеспечения организационно-экономической безопасности промышленных предприятий. Дисс.канд.экон.наук. Санкт-Петербург, 2017.
5. Загорская А.Г. Развитие производственной инфраструктуры предприятий химической промышленности. Дисс. канд. экон. наук. Саратов, 2005. - 181 с
6. Кулясов Н.С. Развитие механизма обеспечения экономической безопасности национальной нефтегазохимической промышленности. Дисс. канд. экон. наук. Москва, 2013, 148 с.
7. Пенюшина Е.С. Совершенствование механизма повышения экономической безопасности российской компании-экспортера: на примере минерально-химической отрасли. Дисс. канд. экон. наук. Ставрополь, 2011, 185 с.
8. Яниогло А. Комплексная система обеспечения экономической безопасности предприятий. Дисс.д-ра экон.наук. КИШИНЭУ, 2017. - 188 с.
9. Əliyev Ş.T. İqtisadi diplomatiya. Bakı, "Elm və təhsil" 2012. - 196 s.
10. Rekun Ivan. Модель проектирования экономической безопасности предприятия // Humanities and Social Sciences, 2015 HSS, vol. XX, 22 (2/2015), pp. 111-121.
11. Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
12. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı, 26 dekabr 2014-cü il. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
13. Sənaye parkları haqqında Nümunəvi Əsasnamə. AR Prezidentinin 2013-cü il 24 aprel tarixli Fərmanı ilə təsdiq edilib. Bakı.
14. Sumqayıt Sənaye Kimya Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri., 21 dekabr 2011-ci il, №548.
15. Əliyev Ş.T. Azərbaycanda neftkimya kompleksinin inkişafının müasir aspektləri və istiqamətləri // Audit jurnalı №3, 2016. - s. 41-46.
16. Sumqayıt Kimya Sənaye Parkına investisiyalar 3 mlrd. dollara çatdırılacaq. 16 Noyabr, 2018. https://finans.az/xeber/sumqayit-kimya-senaye-parkina-investisiyalar-3-mlrd-dollara-catdirilacaq.html.
17. SOCAR Polimer polipropilenin ixracına başladı. 05.10.2018. http://abc.az/ru/news/18419.



***Ровшан Дадаш оглу Байрамов***
***докторант Сумгаитского***
***Государственного Университета***
***E-mail: mr.bayramov1972@mail.ru***



***Резюме***

***Теоретико-методологические подходы к организации системы экономической безопасности химических предприятий***

*Цель исследования – состоит из формирования теоретико-методологических подходы к организации системы экономической безопасности химических предприятий. С этой целью раскрыта сущность и рассмотрены проблемы экономической безопасности химических предприятий. Анализированы важные вопросы и факторы, связанные с организацией системы экономической безопасности. Затронут мировой опыт и даны важные аспекты усиления системы экономической безопасности. Обобщены теоретические аспекты экономической*




*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

*безопасности на основе системного подхода. Обоснована важность организации экономической безопасности предприятий. Дана важность организации системы экономической безопасности и обеспечения эффективного осуществления процессов, связанных с экономической безопасности в химических предприятиях. Определены методологические подходы к организации экономической безопасности в химических предприятиях. Методология исследования – в статье использованы методы анализа и синтеза, связанные с формированием эффективных подходов к организации экономической безопасности в химических предприятиях. Кроме того, применены подходы и обобщения трудов ряда ученых и исследователей по рассматриваемым проблемам. Практическая значимость исследования – полученные результаты и научно-экономические подходы могут быть использованы при разработке стратегий и комплексных мероприятий по совершенствованию механизмов эффективного обеспечения организации системы экономической безопасности химических предприятий. Результаты исследования разработаны оптимальные и эффективные подходы по совершенствованию организации системы экономической безопасности химических предприятий в Азербайджане. Оригинальность и научная новизна исследования – основной частью рассматриваемых проблем считаются новые научно-исследовательские направления. В качестве оригинального научного результата можно привести формирование современного научно-практического взгляда по определению теоретико-методологических подходов к организации системы экономической безопасности химических предприятий. Обоснована важность разработки и применения новых механизмов экономической безопасности химических предприятий в постпандемическом периоде. Даны и аргументирована важность усиления сырьевой обеспеченности, обновления новых фондов и интенсификации трансфера новых технологий.*

***Ключевые слова:*** *химические предприятия, экономическая безопасность, теоретические основы экономической безопасности, методические подходы к экономической безопасности, проблемы экономической безопасности химических предприятий, вопросы безопасности в химических предприятиях, теоретико-методологические аспекты экономической безопасности химических предприятий.*



***Rovshan Dadash Bayramov***
***Doctoral student of***
***Sumgayit State University***
***E-mail: mr.bayramov1972@mail.ru***

***Summary***

***Theoretical and methodological approaches to the organization of the system of economic safety of chemical enterprises***

*Purpose of the research – is to form theoretical and methodological approaches to the organization of the economic safety system of chemical enterprises. To this end, the essence is disclosed and the problems of economic safety of chemical enterprises are considered. Important issues and factors related to the organization of the economic security system are analyzed. World experience will be touched upon and important aspects of strengthening the economic security system will be given. Theoretical aspects of economic security are summarized on the basis of a systemic approach. The importance of organizing the economic security of enterprises is justified. The importance of organizing an economic security system and ensuring the effective implementation of processes related to economic security in chemical enterprises is given. Methodological approaches to the organization of economic safety in chemical enterprises have been determined. Research methodology – the article uses analysis and synthesis methods associated with the formation of effective approaches to the organization of economic security in chemical enterprises. In addition, approaches and generalizations of the works of a number of scientists and researchers on the problems under consideration were applied. The practical importance of a research – the results obtained and scientific and economic approaches can be used in the development of strategies and integrated measures to improve mechanisms for effectively ensuring the organization of the economic*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*safety system of chemical enterprises. Originality and scientific novelty of the research - the main part of the problems considered are new research areas. As an original scientific result, one can cite the formation of a modern scientific and practical view on the definition of theoretical and methodological approaches to the organization of the economic safety system of chemical enterprises. The importance of developing and applying new mechanisms for the economic safety of chemical enterprises in the post-pandemic period is justified. The importance of strengthening the raw materials supply, updating new funds and intensifying the transfer of new technologies is given and argued.*

***Key words:*** *chemical enterprises, economic security, theoretical aspects of economic security, methodological approaches to economic security, problems of economic safety of chemical enterprises, safety issues at chemical enterprises, theoretical and methodological aspects of economic safety of chemical enterprises.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 06.07.2021.***
***Çapa qəbul olunub: 12.07.2021.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az